# Kitablar arasında

Astara rayon Ərcivan kənd kitabxana filialının müdiri Ağadadaş Əliyevin 70 yaşı tamam olmuşdur. Bu illərin çoxu (40 ili) kitabxanaçılıq fəaliyyəti ilə bağlıdır.

Bu günlərdə Ağadadaş Əliyevin 70 illik yubileyi münasibətilə rayon Mərkəzi kitabxanasında tədbir keçirilmişdir.

Yubiley tədibirini giriş sözü ilə Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Şadoğlan Bayramov açmışdır.

Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Nazim Fərəməzov A.Əliyevin həyatı və əmək fəaliyyəti haqqında məruzə etmişdir.

Suparıbağ kənd kitabxana filialının müdiri İsmayıl Ramazanov, Ərcivan kənd mədəniyyət evinin direktoru Əsədulla Musayev, Ərcivan kəndində təqaüdçü-müəllim İzətulla Məmmədov, Rayon Mədəniyyət və Turizm Şöbəsinin məsləhətçi inspektoru, YUNESKO-nun Beynəlxalq Muzeylər Şurasının həqiqi üzvü Əfqan Şəfiyev, yubilyarın yaxın qohumları çıxış edərək A.Əliyev haqqında xoş sözlər söyləmişlər.

Mədəniyyət İşçiləri Azad Həmkarlar İttifaqı komitəsinin sədri Hacıbala Ramazanov çıxış edərək yubilyarı təbrik etmiş, ona fəxri fərman və pul mükafatı vermişdir.

Rayon Mədəniyyət və Turizm Şöbəsi tərəfindən yubilyara fəxri fərman, Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi tərəfindən isə pul mükafatı təqdim edilmişdir.

Axırda A.Əliyev çıxış edərək yubileyinin keçirilməsinə və haqqında xoş sözlər söyləndiyinə görə minnətdarlığını bildirmişdir.

Şahin FƏRƏMƏZOV

Mədəni-maarif.-2007.-№12.-S.16.